# Sevinc Nuruqızının "Duman pəriləri Şu-Şa" kitabı Beynəlxalq Kitab Sərgisində təqdim olundu




"Əziz oxucu! Əminəm ki, Şuşa haqqında bütün tarixi həqiqətləri bilirsən. Pənahəli xanı, İbrahimxəlil xanı, Ağabəyim ağanı, Xan qızı Natəvanı da yaxşı tanıyırsan  Tanımadığın yalnız duman pərilərdir. Cıdır düzünün sonsuz ənginliklərində, çəmən boyu səpilmiş xarıbülbüllərin şehinə-şərbətinə sığınıb əsrlərdən bəri Şuşanın səmasında uçuşan duman pəriləri varmı, yoxmu, bilmirəm. Yoxdurlarsa, duman pərilərinin zərif, kövrək, işıltılı obrazı qəfildən necə peyda oldu mənim düşüncəmdə?! Varlarsa, nədən yüz illərlə onları bir kimsə görmədi?! Bəlkə də, bütün nağıl qəhrəmanlarının taleyi belədir. Günlərin bir günü bu qəhrəmanlar bir nağılçının təsvirində yaranır, əbədi həyat qazanırlar. Əsas olan cismani varlıq deyil ki... Arzularda, xəyallarda yaşamaq da bir başqa həyatdır.  Bax bu düşüncələrlə səni duman pərilərinin səltənətinə - qədim Şuşaya macəra və gözəllik dolu səyahətə dəvət edirəm... "Duman pəriləri Şu-Şa" nağıl-povesti ilə... " Oxucuya belə səmimi müraciətlə başlayan Şuşa nağılı öz uçuşan duman pəriləri, qara uçağanları, nəfəstutan macəraları və sonsuz səmimiyyəti ilə 11-15 noyabrda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo mərkəzində keçirilən 9-cu Bakı Beynəlxalq Kitab sərgisi çərçivəsində oxuculara təqdim edildi. Uşaq yazıçısı, Qızıl Kəlmə mükafatı laureatı Sevinc Nuruqızının "Təhsil" nəşriyyatında işıq üzü görən "Duman pəriləri Şu-Şa" kitabının rəng, coşqu və sevgi dolu teatrallaşdırılmış təqdimatında Xəzər rayonu 124 nömrəli məktəbin 3 c sinif şagirdləri əsərin qəhrəmanlarını məharətlə canlandırdılar. Sənubər Əliyevanın quruluşunda canlandırılan səhnəciklərdə əsərin mifik qəhrəmanları - duman pəriləri şahzadəsi Şu və duman pəriləri Şa obrazları, Şuşanın təməlini qoyan Pənahəli xan, qürbətdə Şuşa həsrəti ilə yaşayan Ağabəyim Ağa, xan qızı Natəvan, Şuşanın keçmişinə və gələcəyinə möcüzəvi səfər edən Zəfər adlı qəhrəmanlar yer aldı. Duman pərilərinin rəqsi əsərin mifik qəhrəmanlarının incə və zərif uçuşunun debütü kimi uşaqlara təqdim olundu. "Səma" rəqs qrupunun ifasında "Xarıbülbül" kompozisiyası ifa edildi. Tədbiri giriş sözü ilə "Duman pəriləri Şu-Şa" əsərinin müəllifi Sevinc Nuruqızı açdı, yaratdığı mifik duman pəriləri obrazları haqqında, bütövlükdə əsər haqqında məlumat verdi. Keçmişimiz, bu günümüz və sabahımızın əvəzsiz incisi olan Şuşanı xarakterizə edən mifik obrazların yaradılmasında əsas məqsədini açıqladı. "Təhsil" nəşriyyatının baş direktoru Tural Axundov kitabın ərsəyə gəlməsindən danışdı. Bakı Təhsil İdarəsinin əməkdaşı, pedaqogika üzrə fəlsəfə doktoru, uşaq ədəbiyyatı tədqiqatçısı Sevinc Rəsulova çıxışında "Duman pəriləri Şu-Şa" əsərinin Azərbaycan ədəbiyyatının mifik obrazlar silsiləsinə bəxş etdiyi yeni qəhrəmanların - duman pərilərinin xarakterik xüsusiyyətlərindən, uşaq ədəbiyyatının belə ədəbi qəhrəmanlara ehtiyacından söz açdı.

**Ədəbiyyat qəzeti.- 2023- cü il.- 25 noyabr.- № 45.- S. 15.**